Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Səfəvilər dövlətinin banisi

**Şah İsmayıl Xətainin 535 illik yubleyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Ülkər Cabarova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Səfəvilər dövlətinin banisi ”** Şah İsmayıl Xətainin 535 illik yubleyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.C.Ülkər; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. –36 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

Azərbaycan tarixində elə şəxsiyyətlərin izləri var ki, onların adı çox böyük bir dövrü əhatə edir. Bu şəxsiyyətlər olmasaydı, bəlkə də onların yaşayıb-yaratdığı mühit həddən artıq kasıb görünərdi. Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixinə Şah İsmayıl Xətai kimi nəhəng şəxsiyyətin, söz-sənət adamının adı da həkk olunub. O bir şair kimi Azərbaycan xalqının mənəviyyatının zənginləşməsində müstəsna rol oynayıb. Milli ədəbiyyatımızın formalaşmasına, poeziya nümunələrinin ana dilimizdə yaranmasına Şah İsmayıl Xətai çox böyük dəstək verib. O, dilimizi xalq içindən çıxarıb yüksəklərə - saraya gətirib. Doğma Azərbaycan türkcəsini dövlət dili elan etdi. Şah ismayıl Xətainin yaradıcılığı geniş və zəngindir. Şairin həm klassik qəzəl janrında, həm də aşıq şeiri formasında onlarla poeziya nümunəsi var. Hazırladığımız vəsaitdə onlardan bir neçəsi ilə tanış ola bilərsiniz. Bu vəsait Şah İsmayıl Xətainin 535 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmışdır.

## Giriş

Söz vardır kəsdirir başı
Söz vardır kəsər savaşı

**Şah İsmayıl Xətai**



Şah İsmayıl 1487-ci il 23 iyunda Ərdəbil şəhərində dini-siyasi xadim, təriqət başçısı ailəsində anadan olmuşdur. Səfəvilər nəslindəndir. Babası Şeyx Cüneyd, atası Şeyx Heydər hakim olmuşlar. Anası Aləmşahbəyim isə Ağqoyunlu hömdarı Uzun Həsənin qızı idi. Atası Şeyx Heydər 1488-ci ildə Şirvanşahlarla müharibədə öldürüləndən sonra İsmayıl və ailəsi həbs edilmişdir. Dörd il yarım həbsdə saxlanıldıqdan sonra Ağqoyunlu hökmdarı Rüstəm Bayanduri onları İstəxr qalasından azad etdirib Ərdəbilə yola salmışdır. Az sonra Şeyx Heydərin oğlanlarının şöhrətindən qorxuya düşərək onların arxasınca beş min nəfərlik süvari göndərmişdir. Şəməsi adlı yerdə Qızılbaşlar məğlub olmuşlar. Ağqoyunlular yenidən Ərdəbili ələ keçirsə də, İsmayılla İbrahimi tapa bilməyiblər. Qızılbaş tərəfdarları onları Ərdəbildən Gilana – Lahicana qaçırmışlar. İsmayıl qardaşı ilə bərabər Gilanda altı il qalaraq Şəmsəddin Lahicidən ərəb, fars dillərini və "Quran" oxumağı öyrəndi. O, bir çox qələbələrdən sonra 1501-ci ilin payızında Təbrizə gələrək özünü şah elan etdi. 1503-cü ildə Şah İsmayıl Həmədan yaxınlığındakı döyüşdə Sultan Muradı məğlub edərək Ağqoyunlu dövlətinin varlığına son qoymuşdur. 1510-cu ilə qədər bütün İranı və Bağdad da daxil olmaqla bütün İraqı özünə tabe etdirdi. Amudəryadan Fərat çayına qədər geniş bir

ərazi İsmayılın hakimiyyəti altına keçdi. Onun hakimiyyəti illərində Səfəvilər imperiyası Yaxın Şərqin qüdrətli dövlətlərindən birinə çevrilmişdi.

## Yaradıcılığı

Yaradıcılığa yeniyetməlik dövründən başlamış, ilk şeirlərini Yunus Əmrə, Qazi Bürhanəddin, İmamədin Nəsiminin təsiri altında yazmışdır. Əsərlərini həm lirik, həm də epik növdə, həm əruz, həm heca vəznində yazmışdır. Heca vəznli şeirləri



qoşma, gəraylı, varsağı, bayatı, əruz vəznli şeirləri isə qəzəl, qəsidə, qitə, mütrəbbe, tərcibənd janrlarındadır. Şairin ədəbi irsi ana dilində yaratdığı "Divan", didaktik mənzumələr, "Nəsihətnamə" və "Dəhnamə" adlı məsnəvilərdən ibarətdir. Əsərlərinin az qismi fars, ərəb, əsas hissəsi isə Azərbaycan-türk dilindədir. Xətai lirik şairdir. Onun şeirlərinin, xüsusilə qoşma və gəraylılarının ana xəttini şiə-qızılbaşlıq təriqətinin tərənnümü təşkil edir. Xətai şeirlərinin bir qismi də sufilik görüşlərinin təbliğinə həsr olunmuşdur. Şairin sufizmə dair şeirlərinə güclü bir humanizm xasdır. O, məhəbbət lirikasında eşqə yüksək, ali hiss kimi baxır, onu mənəvi ucalıq yolu hesab edir. Onun həm əruz, həm də heca vəznli şeirlərində məhəbbəti "yeri-göyün dirəyi kimi" vəsf edir. Digər qism şeirləri isə təbiətin tərənnümünə aiddir. Əsərləri poetik dilinin sadəliyi, təbiiliyi, orjinal üslubu ilə diqqəti cəlb edir.

https://www.bioqrafiya.com/2020/06/sah-ismayil-xetai.html

## Şah İsmayıl Xətai və Azərbaycan dili.

Azərbaycan və Anadolu türklərinin böyük dəstəyi ilə bir türk dövləti quran Şah İsmayıl qurduğu dövlətdə öz ana dili olan, türk dilini, rəsmi səviyyəyə çatdıran ilk şah olmuşdur. Belə ki, o, xarici ölklərlə rəsmi yazışmalarında bu dildən istifadə etmiş və türk dilində bir çox rəsmi sənədlər və məktublar yazmışdır. Şah İsmayıl, məhz bu əməli ilə türk dilinin rəsmi dövlət dili səviyyəsində yetərli olduğunu sübut etmişdir. Onun bu addımı özündən sonra gələn xələfləri və dövlət rəsmilərinə də örnək olmuşdur. Şah İsmayıl rəsmi yazışmalardan başqa, ordu mənsubları, əmirlər, dövlətin yüksək rütbəli adamları ilə danışıq zamanı öz ana dilindən istifadə edirdi. Həmçinin, Qızılbaşlardan təşkil olunmuş ordu arasında birliyi möhkəmləndirmək və bərabərliyi qorumaq üçün türk dili onun üçün əsas vasitə idi.




Türk dilinin bu yayğınlığı və geniş istifadəsi dilimizin digər dillər üzərində təsirinə yol açmışdır. Türklərin orduda daha çox üstünlük təşkil etməsi və türk dilinin hərbi sahədə yayğın olması çoxlu sayda türkcə terminlərin fars dilində istifadə olunmasına səbəb olmuşdur. Səfəvilər dönəmindən başlayaraq sonrakı əsrlərə qədər bir çox türkcə hərbi terminlər, o cümlədən ordu mənsubları və hərbi sursatların adları kimi əsas sözlər farsdilli geniş şəkildə işlənmişdir. Bu sözlərin böyük əksəriyyəti uzun illər fars dilində istifadə olunmş, bir sırası sonrakı dönəmlərdə farsca sözlərlə yenidən

əvəz olunsa da bir çoxu günümüzə qədər bu dildə yerləşmiş söz kimi istifadə olunmaqdadır.

Şah İsmayıl sayəsində türk dilinin belə geniş yayılması prossesi sadəcə Səfəvilər dövləti daxilində deyil, onun fəth etdiyi ərazilərdə belə ön plana çıxmışdı. İraq ərazisində türkmənlər daha əvvəlki əsrlərdən yaşasalar da 1508-ci ildə Şah İsmayılın Bağdadı fəth etməsi ilə oraya gedən türklərin sayı artmağa və türk toplumunun bölgədə möhkəmlənməsinə səbəb olmuşdur. İraqın dini mərkəz şəhərləri, Kərbəla və Nəcəfə gələn türk ziyarətçilər orada qalıb yaşamış, öz adət-ənənə və dillərini qoruyub saxlamaqla yanaşı bəzi ədəbi nümunələr ortaya çıxarmışdırlar. Beləliklə, İraqın bəzi şəhərləri, xüsusilə Bağdad türk ədəbiyyatı mərkəzlərindən birinə çevrilmişdir. Orda yaşayan, yazıb-yaradan şəxsiyyətlərdən biri Əhdi Bağdadi öz ana dilində yazmış olduğu "Gülşənüş-şüəra" təzkirəsində 375 Azərbaycan və Rüm eli şairləri haqqında məlumat vermişdir. O torpaqlarda həmçinin tanınmış şairimiz Məhəmməd Füzuli kimi bu ənənəni davam etdirən və bir Azərbaycan ədəbiyyatı məktəbi yaradan böyük şəxsiyyətlər ortaya çıxmışdır.

https://bao.az/categories_Medeniyy%C9%99t/subcategories_azerbaycan-medeniyyet/product_7109177204

## Keçiriləcək tədbirlər

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Şah İsmayıl Xətainin yubileyi ilə əlaqədar olaraq "Qüdrətli Şair, İgid Sərkərdə" adlı ədəbi-bədii gecə keçirilə bilər. Şah İsmayıl Xətainin xatirəsinə həsr olunmuş gecəyə Azərbaycanın görkəmli ədiblərini, tədqiqatçıları, sənət-söz adamlarını və s. dəvət etmək olar. Tədbir iştirakçıları Şah İsmayıl Xətainin həyat və yaradıcılığından bəhs edən slaytdan sonra, tədbiri açıq elan etmək üçün aparıcılar səhnəyə daxil olurlar.

***I Aparıcı:*** Salam, dəyərli qonaqlar, bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, dövlətimizin, tarix və mədəniyyətimizin yaşadıcısı Şah İsmayıl Xaitinin anadan olmasının 535–illiyi tamam olur. Bu münasibətilə buraya yığışmışıq. O, Şah İsmayıl Xətainin həyat və yaradıcılığı haqqında geniş məlumat verdikdən sonra bildirdi ki, Şah İsmayıl məğrur, azad fikirli, öz qüdrətinə inanan bir sərkərdə, həqiqət yolundan zərrə qədər kənara çıxmayan nəcib insan idi. Şah İsmayıl həmişə xalqının rifahı üçün çalışıb, qurduğu qüdrətli dövlətin daim çiçəklənməsi üçün əlindən gələni əsirgəməyib. Daima xalqın arasında olub və xalqının dərd-sərinə şərik olub. Şah İsmayılın apardığı müharibələr onun vahid Azərbaycan dövləti yaratmaq arzu və istəyindən irəli gəlib. O, Azərbaycan dilini dövlət və şeir dilinə çevirib, ölkənin siyasi, ictimai, iqtisadi və mədəni inkişafı üçün ölçüyəgəlməz dərəcədə böyük işlər görüb.

***II Aparıcı:*** Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında Şah İsmayıl Xətainin 535 illik yubileyi ilə əlaqədar olaraq Fərman Kərimzadənin Çaldıran Döyüşü romanından kiçik bir

parçanı səhnəcik şəklində təqdim edə bilərlər. Səhnəyə əsərə uyğun dekorasiyalar qurulur. 0xucular xüsusi geyimdə səhnəyə daxil olur. Kitabxanaçı ilkin olaraq Fərman Kərimzadənin "Çaldıran döyüşü" kitabı haqqında məlumatı oxuculara çatdırır.




**Kitabxanaçı:** "Çaldıran döyüşü" Fərman Kərimzadənin Xudafərin körpüsü dilogiyasının ikinci hissəsi olan və 1988-ci ildə nəşr edilən tarixi romanıdır. Əsərin adı 1514-cü ildə Səfəvilərlə Osmanlılar arasında baş vermiş Çaldıran döyüşündən götürülmüşdür. Roman görkəmli dövlət xadimi, sərkərdə və şair, ulu xüsusi yeri olan tariximizdə Şah İsmayıl Xətainin həyatından, çoxcəhətli ictimai fəaliyyətindən bəhs edən "Xudafərin körpüsü" dilogiyasının ikinci hissəsidir. Siyasət meydanına yenicə qədəm qoyan Şah İsmayılın vahid və qüdrətli Azərbaycan uğrunda apardığı gərgin mübarizələr, ağıllı dövlət xadiminin mədəniyyətin və sənətin yüksəlməsinə göstərdiyi qayğı, xalqımızın orta əsr məişət tərzi romanın əsas mövzusudur. Siyasət meydanına yenicə qədəm qoyan Şah İsmayılın vahid və qüdrətli Azərbaycan uğrunda apardığı gərgin mübarizələr, ağıllı dövlət xadiminin mədəniyyət və sənətin yüksəlməsinə göstərdiyi qayğı, xalqımızın orta əsr məişət tərzi romanın əsas mövzusudur.

*Kitabxanaçı kitab haqqında qısa məlumat verdikdən sonra oxucular xüsusi geyimdə səhnəyə daxil olur.*

**I oxucu:** Çaldıranda qızğın döyüş gedirdi. Şah İsmayıl qüvvətli zərbə ilə topları bir-birinə bağlayan zəncirləri qırıb topu iki yerə ayırdı. Şah düşmənin artilleriyasına hücum çəkdi. Atı büdrəyib yıxıldı. Şah İsmayıla çox oxşayan Sultanəli Mirzə Əfşar özünü irəli atıb haray saldı: "Şah mənəm!" O, şahını əsir düşməkdən qorudu. Yaralı Şah İsmayıl atına mindi. Döyüş meydanından uzaqlaşdı.

**II oxucu:** Sultan Səlim Çaldıran döyüşündən uzun müddət sonra Şah İsmayıldan qılıncını ona göndərməsini tələb etdi. Şah qılıncı göndərdi. Sultan Səlim dəfələrlə cəhd etsə də, topu kəsə bilmədi. O, şaha məktubunda yazdı: "Sən məni aldadırsan, bu həmin qılınc deyil". Şah Sultana cavab verdi: "Qılınc həmin qılıncdı, qol o qol deyil".

**III oxucu:** Tarixçilər Çaldıran döyüş meydanında xeyli qadın meyitinin tapıldığını yazıblar. Onlar kişi paltarı geyinib Qızılbaş ərləri ilə birgə vuruşmuş qadınlar idi. Deyilənə görə, Şah İsmayılın həyat yoldaşı Taclı Bəyim döyüşdə əsir düşüb, zinət əşyalarını əsgərlərə verərək qaçıb qurtulub. Onun sonrakı taleyi məlum deyil.

**IV oxucu:** I Sultan Səlim Xoy, Mərənd və Təbriz şəhərlərini işğal etsə də, Səfəvilər paytaxtında çox qala bilmədi. 6 gündən sonra Təbrizi tərk etdi. Apardığı qiymətli qənimətlər arasında Şah İsmayılın tacı, əlbisələri və bəzək əşyaları da vardı.

**V oxucu:** Çaldıran məğlubiyyətinin sarsıntılarını Şah İsmayıl ömrünün sonunadək unutmadı, bir də heç vaxt ürəkdən gülmədi. Qələmə aldığı şeirlərinə də kədər, qüssə çökdü...

Tədbir oxucular və kitabxananın əməkdaşları arasında sual- cavabla yekunlaşdı.

Kitabxananın oxu zalında Şah İsmayıl Xətainin həyat və yaradıcılığını, əsərlərini müzakirə etmək, bu əsərlərdən bəhs edən sual-cavab gecəsi hazırlamaq olar. Həmçinin oxucularımızın Şah İsmayıl Xətai haqqında olan fikirlərini öyrənmək məqsədilə anket sorğularının keçirilməsi məqsədə uyğundur. Bunu nəzərə alaraq hazırladığımız sorğunu sizə təqdim edirik.

1.Şah İsmayıl Xətai neçənci ildə taxta çıxmışdır?

____________________________

2. Şah İsmayıl Xətaİ əsasən əsərlərini hansı dillərdə yazırdı?

____________________________

3. Şah İsmayıl Xətainin irsinin öyrənilməsində hansı tədqiqatçıların adlarını qeyd edə bilərsiniz?

____________________________

4.Şah İsmayıl Xətai neçənci əsrdə hakimiyyətdə olmuşdur?

___________________________

5.Şah İsmayıl Xətai hansı dövləti yaratmışdır?

___________________________

6. Şah İsmayıl Xətai haqqında yazılmış əsərlərdən hansı haqqında məlumatınız var?

___________________________

7. Şah İsmayıl Xətainin Ərzincana yürüşü neçənci ildə olmuşdur?

___________________________

8. Məhəmməd Füzuli hansı əsərini Şah İsmayıl Xətaiyə həsr etmişdir?

___________________________

9.Şah İsmayıl Xətainin nəsihətamiz, fəlsəfi poeması hansıdır?

___________________________

10.Xətainin 10 məktubdan ibarət olan əsəri hansıdır?

___________________________

11.Azərbaycanda Xətai irsinin öyrənilməsinə neçənci illərdən başlanılmışdır?

___________________________

12.Şah İsmayıl Xətainin iştirak etdiyi döyüşlərdən hansı haqqında məlumatınız var?

___________________________

13.Çaldıran döyüşündə qalib olan tərəf hansı idi?

___________________________

14.Şah İsmayıl Xətai hansı nəslin davamçısı idi?

___________________________

15.Şah İsmayı Xətai neçənci ildə vəfat etmişdir?

______________________

16.Şah İsmayıl Xətai kimin yaradıcılığından bəhrələnmişdir?

______________________

17.Dəhnamə poemasını Şah İsmayıl Xətaidən əvvəl kimlər qələmə almışdır?

______________________

18.Şah İsmayıl Xətainin ilk böyük əsəri hansıdır?

______________________

19.Bəngü-badə əsəri hansı vəzn da qələmə alınmışdır?

______________________

20. Şah İsmayıl Xətainin heykəli hansı heykəltaraş tərəfindən düzəldilmişdir?

----------------------------------------------

**Sulların cavabları**

1.1501- ciildə

2.Ərəb fars dillərində

3.S.Mümtaz, H.Araslı, M.Quluzadə, Ə.Məmmədov, O.Əfəndiyev, Paşa Kərimov, M.Abbaslı

4.. XVI əsrdə hakimiyyətdə olmuşdur.

5..Səfəvilər

6. Yazıçı Ə. Cəfərzadənin "Bakı-1501", F. Kərimzadənin "Xudafərin körpüsü", Ə. Nicatın "Qızılbaşlar" romanları

7.1499

8. "Bəngü Badə" əsəri

9.”Nəsihətnamə” əsəri

10. “Dəhnamə” əsəri

11. Azərbaycanda Xətai irsinin öyrənilməsi sovet hakimiyyəti illərindən başlanmışdır.

12. Çaldıran döyüşü, Mərv döyüşü

13. Osmanlı imperiyası

14. Musa əl-Kazımın nəslindən gəlmişdir.

15.1524- cü il

16. Nizami Gəncəvi

17. Hümam Təbrizi, Marağalı Əvhədi

18. “Dəhnamə” əsəri

19.Əruz vəznində

20. Abidənin müəllifləri Azərbaycan heykəltaraşları, Azərbaycan SSR xalq rəssamı İbrahim Zeynalov və Zakir Mehdiyev, memarları isə P.Hüseynov, Q.Əliyev olub.

Suallara ən çox düzgün cavab verən iştirakçı qalib elan ediləcək. Düzgün cavablar info@clb.az və ya ushaqkitabxanasi@gmail.com elektron ünvanlarına göndərilməlidir. Qalibə Uşaq Kitabxanası tərəfindən kitab hədiyyə ediləcək. Onlayn viktorinanın qalibi haqqında məlumat sosial şəbəkələrdəki hesablarımız və saytımız vasitəsi ilə açıqlanacaq.

Şah İsmayıl Xətainin 535 illik yubleyi münasibəti ilə Onun Bakıda inşa edilmiş heykəlinə oxucularla birlikdə ekskursiya təşkil edilə bilər. Kitabxananın bir neçə əməkdaşının rəhbərliyi ilə təşkil olunan ekskursiyada ilk öncə kitabxanaçı Şah İsmayıl Xətainin həyat və fəaliyyəti, siyasi lider kimi uğurları haqqında məlumat verir. Burada Şah İsmayılın 14 yaşında hakimiyyətə gələrək vahid və indiyə qədər ən böyük Azərbaycan dövləti olan Səfəvi dövlətini yaradan bir şəxsiyyət olması, həmçinin ilk dəfə türk dilini rəsmi dövlət dili elan edən dövlət başçısı olması qeyd edilib. Həmçinin kitabxanaçı Ş.İ.Xətainin hökmdarlıq mövqeyi ilə yanaşı, onun şair kimi yaradıcılığına da geniş yer ayırıb.

**II Kitabxanaçı:** Daha sonra kitabxanaçı qarşısında durduğları heykəl barədə oxuculara məlumat verib. Heykəl 1993-cü ildə Bakıda ucaldılmışdır. Abidənin müəllifləri Azərbaycan heykəltaraşları, Azərbaycan SSR xalq rəssamı İbrahim Zeynalov və Zakir Mehdiyev, memarları isə P.Hüseynov, Q.Əliyev olub. Heykəl yüksək bədii-estetik dəyəri, plastik forma rəngarəngliyi və milli koloriti ilə seçilir. 2007-ci ilə Şah İsmayıl Xətai heykəlinin postamenti yenidən qurulmuş, abidə isə yenidən bərpa edilmişdir. 2017-ci ildə yol təmirinə görə abidənin yerinin dəyişdirilməsi düşünülsə də, nəticə etibarilə təmir zamanı abidəyə toxunulmadı. 2020-ci ildə isə heykəl Yusif Səfərov küçəsində Leyla Şıxlinskayanın klinikası ilə Mərkəzi Neftçilər Xəstəxanasının arasındakı əraziyə köçürüldü.

Sonda oxucuların təqdimatında Xətainin qəzəlləri səsləndirildi.

Xəyalın məskəndir can içində
Yenə Yusif nədir zindan içində?

Gözüm içində ol əksi-camalın
Göhər nisbətlüdür ümman içində.

Yüzün səhmindən ol şəkkər dodağın
Gülüstandır, güli xəndan içində.

Rəqibi qoymagil qapunda, neylər
Bu kəfər cənnəti-rizvan içində?

Xətayi görməmişdir qamətin tək
Xurman sərv heç bustan içində.

Ol pəri peykər ki, çeşmindən nihan olmuşdurur,
Baqi ömrüm olsun ol, cismimdə can olmuşdurur.

Yarəb, ol gözlər nə bağın nərgisi-şəhlasıdır?
Kim, qəmindən cismü canım natəvan olmuşdurur.

Eylə kim, bülbül yeri gülşəndir, ey gül gül üzlü yar,
Könlümə kuyin məqami gülistan olmuşdurur.

Anca çəkdim möhnəti-hicran qəmin, ey bivəfa,
Cövri-eşqindən vücudim natəvan olmuşdurur.

Ta Xətayi gördü ol hüsnü cəmalın, ey günəş,
Gör necə aləm dilində dastan olmuşdurur.

Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında keçiriləcək tədbirlərdə Şah İsmayıl Xətainin “Seçilmiş əsərləri” kitabındakı qəzəllərdən istifadə oluna bilər. Kitabın linki istifadə üçün aşağıda yerləşdirilmişdir.

https://drive.google.com/file/d/1mwfUMJpHsiM79xDu2GAGX6Vk5QTwtYW1/view

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Şah İsmayıl Xətainin 535 illik yubileyi münasibətilə kitabxanamızın əməkdaşları tərəfindən Oxu zalında şairin "Əsərləri" adlı kitabının icmalı keçirildi. Tədbir kitabxana əməkdaşları tərəfindən hazırlanmış slaydın oxuculara təqdim olunması ilə başladı. Ardınca kitabxanaçı oxuculara 2013-cü ildə "Şərq-Qərb" nəşriyatında çapdan buraxılmış Şah İsmayıl Xətainin "Əsərləri " adlı kitabının müzakirəsinə başladı.

**Kitabxanaçı:** Klassik şairimiz və böyük dövlət xadimi Şah İsmayıl Xətai vaxtının çoxunu dövlət işlərinə sərf etməsinə baxmayaraq, zəngin və çoxcəhətli bir irs qoyub getmişdi. O həm əruz, həm də heca vəznində yaddaqalan əsələr yazmaqla ədəbiyyatımızı zənginləşdirmişdi. Sənətkarın oxuculara təqdim olunan əsərlərinin bu yeni nəşrində onun qəzəlləri, qəsidələri, mürəbbeləri, tərcibəndləri, qoşmaları, "Nəsihətnamə" və "Dəhnamə" poemaları və.s daxil edilmişdir.

Xətai yaradıcılığının böyük qismi qəzəllərdən ibarətdir. Onun qəzəl yaradıcılığı özündən əvvəl və sonra yaşamış şairlərin qəzəllərindən xalq dilinə yaxınlığı ilə fərqlənir. Xətai qəzəllərinin dili klassik ədəbi dillə xalq danışıq dilinin sintezindən yaranıb. Bu xüsusiyyət Azərbaycan klassik poeziyasında folklor intibahının xüsisi bir mərhələsi idi. Onun qəzəllərində baş verən vəzn dəyişiklikləri də milli heca vəzninə doğru başlanan inqilabi dinamikadan doğurdu. Ona görə Xətainin qəzəllərində bəzən vəzn ölçüləri pozulur. Bu əsl Azərbaycan sözlərinin daha çox istifadə olunduğu qəzəllərdə özünü daha qabarıq büruzə verir.

Neyləyim, neyləyim, yar yad olubdur,

Ahımdan, zarımdan fəryad olubdur.

Yarın məhəbbəti könlüm evində,

Yuca dağlar kimi bünyad olubdur.

Apardı könlümü, verməz muradım,

Əvvəl iqrar, şimdi inkar olubdur.

Xorasan elində xərac verənlər,

Bağdada varınca azad olubdur.

...Pirə xidmət eylə sultan Xətai,

Pirə xidmət edən ustad olubdur.

Qəzəl quruluşunda olsa da, bu şeir qoşmanı xatırladır. Təsəvvüf rəmzlərindən istifadə olunmasına baxmayaraq, nağıl ifadələrinin çoxluğu onu klassik qəzəl dilindən ayırır. Xətainin qəzəllərində, ümumən, ərəb-fars tərkiblərinə az təsadüf olunur. Xətaişünas alim M.Abbaslı yazırdı: "Şah Xətai yazılı ədəbiyyatla olduğundan daha artıq, şifahi ədəbiyyatla, ozan - aşıq şeirləri ilə bağlıdır. Belə ki onun əruz vəzni ilə yazdığı əsərlərinin əksəri də əruzla hecanın

qatışacağı bir şəkildədir. O, əruzun " həcəz" tək oynaq bəhrlərində elə sadələşdirici, nümunəvi formalar seçmişdir ki, bunları cüzi əlamətlərlə yalnız mütəxəssislər qoşmalardan ayıra bilərlər."

**II kitabxanaçı:** Xətai təsəvvüf məzmunlu qəzəllərində folklor ənənələrindən sufi-qızılbaş ideyalarının təbliği məqsədilə istifadə edir və bu zaman xalq arasında məşhur olan dini hadisə və obrazlara üz tutur. Nəsimi istisna olmaqla, Xətaiyə qədərki qəzəl janrında təsəvvüf rəmzləri özünün sistemli ifadəsini, demək olar ki, tapmamışdı. İstər Molla Qasım, istər Mövlana Cəlaləddin Rumi, istərsə də Yunus Əmrənin qoşma və gəraylılarında təsəvvüfün şiəlik nişanları Xətai qəzəllərindəki qədər ardıcıl və sistemli deyil. Sufizmin ən güclü inkişaf dövrləri şiəliklə bağlıdır. Xətai qəzəllərində şiəliyin təbliği ideoloji mahiyyət daşıyır və folklorlaşmış hədis nümunələrinin çoxluğu ilə xarakterizə olunur. Bu özünün ən parlaq ifadəsini şiəliyin ən böyük şəxsiyyət kimi qəbul etdiyi Həzrət Əlinin təbliği və mədhində tapır:

Şəha, bu doğru yola varmaq üçün,

Sənin tək rəhnüma istər Xətai.

Yezidü kafirü Mərdanə hər dəm,

Qazilərdən qəza istər Xətai.

Məhəmmədü Əlinin hörmətiçün

Yəqin bilgil, xuda istər Xətai.

Sufilər Əlini ilk öncə bir imam kimi mədh etsələr də, sonralar onun adı batini rəmzlərin əsas göstəricisinə çevrilmişdi. Xalq təsəvvüf ədəbiyyatında Həzrət Əlinin bütün görüntülərindən ən ümdəsi onun elmi-fürqana (Quran elminə) müstəsna vaqifliyidir. Bunun əsasında İslam dini peyğəmbərinin Əli barədəki "Mən elmin şəhri, Əli isə onun qapısıdır" hədisi dururdu.

Xətai öz dövrünün Əlisi sayılır, təriqət başçısı kimi müqəddəsləşdirilir, onun sərkərdə kimi məğlubedilməzliyi də bu müqəddəsliklə əlaqələndirilirdi. Şair hökmdarın bu mənada öz nəsil xəttini Əliyə bağlaması tamamilə məntiqi və məqsədəuyğun idi:

Səfi nəsli Cüneydi - Heydər oğlu,

Əliyyəl - Mürtəzaidir Xətai.

Həsən eşqinə meydanə gəlibdir,

Hüseyni Kərbəlaidir Xətai.

Tədbirin sonunda oxucuların sualları cavablandırılır.Onlar səsləndirilən qəzəllərdə anlaşılmayan bəzi sözlərin mənasını öyrənmək məqsədilə bəzi sulları kitabxanaçıya ünvalayırlar.

## Görkəmli şəxsiyyətlərin Ş.İ.Xətai haqqında söylədikləri

İsmayıl azyaşlı olsa da, fəhm və fərasətdə, ağıl və bilikdə elə təəccüblü bir əlaməti vardı ki, ilk baxışda dünyanı idarə etmək bacarığı onun mübarək çöhrəsindən görünür, işıqlı alnından ilahi nur saçılırdı. Ali məiyyətin mülazimləri xilafət çəməninin bəzəyi olan o yeniyetməni gözəl etiqad zülalı ilə bəsləyirdilər, qeybdən ilham alaraq, onu yüksək şahlıq ünvanı ilə adlandırırdılar və azyaşlı olmasına baxmayaraq, mətin əqidə və iradə ilə onu mürşidi-kamil və şah deyə çağırırdılar.

**İsgəndər bəy Münşi**

Şah İsmayılın müridlərinin ölüm daxil olmaqla hər cür fədakarlığa sevə-sevə qatlanmaları, siyasi durumun uyğun olması bir həqiqət olmaqla bərabər, 13 yaşında hər tərəfdə şiddətli etiraz ilə qarşılana biləcək bir məzhəbi təmsil edən dövlət qurması onun doğrudan da böyük şəxsiyyət olduğunu göstərməyə kifayət edir. O, çox cəsur və intizam sevər bir şəxsiyyət olduğu kimi, eyni zamanda təşkilatçı və təhsilli hökmdar idi. Təbriz meydanında bəyləri ilə birlikdə ox atarkən… ozanlar qopuz çalaraq onun igidliyini öyən nəğmələr söyləyirdilər.

**Faruq Sümer**

Müasirlərinin ümumi fikrinə görə o, hərbi istedada malik idi. Tarixçi Xondəmir İsmayılın hərb dühasını xüsusi tərifləyir. Tarixçi Həsən Rumlu qeyd edir ki, İsmayıl öz həyatı boyu beş böyük savaş aparmışdır: 1500-cü ildə Cabani yaxınlığında Şirvanşah Fərrux Yəsarla, 1501-ci ildə Şərurda Ağqoyunlu Əlvənd ilə, 1503-cü ildə Almabulağı yaxınlığında Sultan Murad Ağqoyunlu ilə, 1510-cu ildə Mərv yaxınlığında özbək xanı Məhəmməd Şeybani ilə və 1514-cü ildə Çaldıranda I Sultan Səlim ilə. Bu beş döyüşdən ilk dördü İsmayılın parlaq qələbəsi və onun düşmənlərinin tamamilə darmadağın edilməsi ilə nəticələnmişdir. Yalnız sonuncu savaşda İsmayıl … ondan asılı olmayan səbəblər üzündən uduzmuş, lakin son nəticədə düşməni geri çəkilməyə məcbur edə bilmişdi.

**İ.P.Petruşevski**

Səfəvilər dövlətinin tarixi Azərbaycan xalqının tarixi ilə, onun sonrakı etnik konsolidasiyası ilə qırılmaz surətdə bağlıdır. Azərbaycanın cənub və şimal vilayətlərinin Səfəvilər dövlətinin vahid, nisbətən mərkəzləşdirilmiş hüdudları daxilində birləşdirilməsi bu vilayətlərin keçmişə nisbətən daha sıx siyasi, iqtisadi, mədəni və etnik inteqrasiyasına zəmin yaratmışdı. Onilliklər boyu davam etmiş feodal pərakəndəliyindən sonra Azərbaycan XVI əsrdə yenidən özünün dövlət bütövlüyünü əldə etmiş, iqtisadiyyat və mədəniyyət sahəsində müəyyən tərəqqiyə nail olmuşdu.

**O.Ə.Əfəndiyev**

I Şah İsmayıl Xətainin şəxsiyyəti haqqında müasirləri hərbi istedadının etiraf olunmasında yekdildirlər. Şah İsmayılın böyük dövlət təşkil etmək uğrunda fəaliyyəti və mülki idarəçiləri seçmək bacarığı onun böyük siyasi xadim olduğunu göstərir.

**İ.P.Petruşevski**

Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında Şah İsmayıl Xətainin yubleyi ilə əlaqədar olaraq "Söz ustadı Xətai", "Gənc şair Xətai" adlı kitab sərgisi və oxucularla söhbət təşkil edilə

bilər. Kiabxananın əməkdaşı böyük söz ustadının yazdığı əsərləri, qəzəlləri, qəsidələri, mürəbbeləri, tərcibəndləri, qoşmaları, pyeslərindən söhbət açır. Sərgidə təqdim olunan kitabları və onlar haqqında qısa məlumatları aşağıda qeyd edirik. Həmçinin kitablarla yaxından tanış olmaq məqsədilə kitabların linkini də sizin istafadəniz üçün vəsaitə yerləşdiririk.
https://drive.google.com/file/d/1mwfUMJpHsiM79xDu2GAGX6Vk5QTwtYW1/view

https://drive.google.com/file/d/1Hsye0Fl5R4ygZT8HbQ2knq-6dVRpkFwT/viewhttps://drive.google.com/file/d/1mwfUMJpHsiM79xDu2GAGX6Vk5QTwtYW1/view

**Sərgi**




Klassik şairimiz və böyük dövlət xadimi Şah İsmayıl Xətai vaxtının çoxunu dövlət işlərinə sərf etməsinə baxmayaraq, zəngin və çoxcəhətli irs qoyub getmişdi.O həm əruz həm də heca vəznində yaddaqalan əsərlər yazmaqla ədəbiyyatımızı zənginləşdirmişdi.

Sənətkarın oxuculara təqdim olunan əsərlərinin bu yeni nəşrində onun qəzəlləri, qəsidələri, mürəbbeləri, tərcibəndləri, qoşmaları, “Nəsihətnamə” və “Dəhnamə” poemaları və.s daxil edilmişdir.




Bu kitabda həm əruzla, həm də heca vəznində lirik janrlarda yazmış yadda qalan əsərləri bu kitabda yer almışdır. Ş.İ.Xətainin səmimi ürəkdən qopub gələn, zamanın qarşıya qoyduğu tələblərə cavab kimi meydana çıxan poeziyası çox vaxt ictimai-siyasi fəaliyyəti ilə birləşmişdir. Bu poeziya gah qilincla döyüş meydanlarına getmiş, gah müdrik bir el ağsaqqalının, təriqət şeyxinin öyüdlərinə çevrilmiş, gah da dünyaya və insana məhəbbətlə, şərə, eybəcərliyə, əqidəsizliyə, dönuklüyə ,sədaqətsizliyə, cılızlığa nifrətlə doludur.




Ulu klassik şairimiz və böyük dövlət xadimi Şah İsmayıl Xətainin adı XVI əsr Azərbaycan varlığının bütün taleyükü məsələləri ilə bağlı olaraq iftixar hissi ilə çəkilir. Kitabda ulu şairimizin əsrlər boyu oxunmuş və təravətini itirməmiş əsərləri toplanmışdır. Başı üstündən əsrlərin acı rüzgarı əsmiş Xətai poeziyası, inanırıq ki, oxuculara yenə böyük sənət doğmalığı gətirəcək.




Azərbaycanın görkəmli dövlət xadimi Şah İsmayıl Xətai 38 illik həyatında vaxtının çoxunu dövlət işlərinə sərf etməsinə baxmayaraq zəngin və çoxcəhətli ədəbi irs yaratmışdır. Bəhs etdiyimiz kitaba onun səmimi, ürəkdən qopub gələn poeziyasından seçmələr daxil etmişik.

Şah İsmayıl Xətainin Yubleyi ilə əlaqədar olaraq kitabxanalarda “Şah İsmayıl Xətainin 535 illik yubleyi” adı altında fota-stend yaradıla bilər. Fota-stenddə Xətainin başçılığı ilə baş vermiş döyüşlərdən şəkilər,  öz şəkilləri yer ala bilər.







Çaldıran döyüşü , 1525-ci ilə aid rəsm

Şah İsmayılı Mərv döyüşündə Şeybani xanla döyüşərkən təsvir edən miniatür



Şah İsmayılın dəbilqəsi

Gəncədə Şah İsmayılın adına zərb olunmuş iki şahılıq gümüş pul



Şah İsmayıl Xətainin “535 illik yubileyi” münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında keçiriləcək tədbirlərdə Ş.İ.Xətai haqqında hazırlanmış filimin nümayiş etdirilməsi məqsədə uyğundur. Filimə baxmaq üçün aşağıda yerləşdirdiyimiz linkdən istifadə edə bilərsiniz.

https://www.youtube.com/watch?v=Uo-pWlfPBqQ

Ulu klassik şairimiz və böyük dövlət xadimi Şah İsmayıl Xətayinin adı XVI əsr Azərbaycan varlığının bütün taleyüklü məsələləri ilə bağlı olaraq iftixar hissi ilə çəkilir. Onun müstəsna qabiliyyəti və ardıcıl qayğısı sayəsində milli dilimizin yad dillərin təsirindən təmizlənməsi və qədim mədəniyyətimizin dirçəlişi başlanmışdır. Xətayinin ölümsüz poeziyası arıdılmış Azərbaycan dilinin duruluq çeşməsi kimi klassik irsimizin möhtəşəm abidəsidir. Şairin əvəzsiz nəfəs yanğıları öz təmkini, bütövlüyü və sənətkarlıq cilası baxımından söz xəzinəmizin zirvə örnəkləridir. Başı üstündən əsrlərin acı rüzgarları əsmiş Xətayi poeziyası, inanırıq ki, oxucularına yenə böyük sənət doğmalığı gətirəcək.

**F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Əsərləri**

**Xətai Ş. İ**. Seçilmiş əsərləri : şeirlər. - Bakı : OKA ofset, 2005. - 344 s.

**Xətai Ş. İ**. Seçilmiş əsərləri : poeziya. - Bakı : Çaşıoğlu, 2006. - 231 s.

**Xətai Ş. İ**. Seçilmiş əsərləri. - Bakı : Kitab klubu, 2016. - 424 s.

**Xətai Ş. İ**. Əsərləri : qəzəllər. - Bakı : Şərq-Qərb, 2013. - 372 s.

**Kitablarda**

**Kərimzadə F**. Çaldıran döyüşü : roman. - Bakı : Kitab klubu, 2016. - 368 s.

**Nicat Ə. Q.** Şah İsmayıl. - Bakı : Gənclik, 1994. - 16 s.

**Şah İsmayıl** // Azərbaycan dastanları : 4 kitabda. 3-cü kitab. - Bakı : XAN nəşriyyatı, 2017. - S. 121-156.

**Dövrü mətbuatda**

**Abbaslı T**. Bir ömrün iki şahlığı : Bunları Xətai yaşadı; birini qüdrətli dövlət naminə qadir Qılıncı, birini fəzilətli qəlblər

adına nadir Qələmilə... // Mədəniyyət. - 2017. - 14 iyul. - № 54. - S. 12.

**Abbaslı T**. Həm də Söz fatehi : "Söz vardır kəsdirər başı, Söz vardır kəsər savaşı..." söyləmiş Şah İsmayıl Xətai // Mədəniyyət. - 2018. - 20 iyul. - № 55. - S. 12.

**Ağalarlı M**. Şah İsmayıl Səfəvi şəxsiyyəti tarixi qaynaqlar güzgüsündə // 525-ci qəzet. - 2022. - 30 mart. - № 53. - S. 18-19.

**Babanlı T**. Şah babamızın vəsiyyəti // Göy qurşağı. - 2017. - № 5(62). - S. 18-19.

**Babayev Y**. Ş.İ.Xətainin "Dəhnamə" poemasının ideya və sənətkarlıq xüsusiyyətlərini tədris edərkən... // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2015. - № 4. - S. 4-8.

**Babayeva Y**. Xətainin yaradıcılığı öyrədilərkən... // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2015. - № 1. - S. 40-44.

**Bayramov İ**. Tarixə düzgün baxış və ya haqqı nahaqqa vermək olmaz : Akademik Ramiz Mehdiyev "Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi" məqaləsi // Respublika. - 2012. - 19 dekabr. - № 283. - S. 4.

**Bayramzadə S**. Tarixi təhrif etməyin... // Palitra. - 2016. - 7 yanvar. - № 2. - S. 10.

**Bədəlov Ş**. "Ey Xətai, afərin qılmaq gərək idrakinə" : Xətai yaradıcılığının xəlqi xüsusiyyətləri haqqında qeydlər // Azərbaycan. - 2009. - № 2. - S. 193-199.

**Cavidan.** Şah İsmayıl ləqəbi // Planet. - 2005. - noyabr. - S.14.

**Cəfərov N**. Tarixin metafizikası : nəzəriyyə məsələləri // Azərbaycan. - 2014. - 31 yanvar. - № 20. - S. 6.

**Əjdəroğlu D**. Böyük hökmüdar : Şah İsmayıl Xətai // Xəzərdən dünyaya. - 2006. - 21 dekabr. - S.14.

**Əlioğlu P**. Xoca Əhməd Yəsəvi yaradıcılığı və Azərbaycan ədəbiyyatı : ixtisarla // Ədəbiyyat qəzeti. - 2019. - 14 sentyabr. - № 31. - S. 24-25.

**Fəhmi İ**. Sən kimsən, Səfəvi... : Səfəviliyin estetik fəlsəfəsi haqqında bədii-publisistik əsərdən qısa fraqmentlər // Ədəbiyyat qəzeti. - 2015. - 16 yanvar. - № 2/3. - S. 14-15. ; 23 yanvar. - № 4/5. - S. 4-5. ; 30 yanvar. - № 6/7. - S. 6-7.

**Fərəcov S**. Şah İsmayıl Xətai Fəhmi və duyğular çələngi // Mədəniyyət. - 2012. - 29. dekabr. - № 95. - S. 15.

**Fərəcova Z**. Qüdrətli şah, igid sərkərdə, incə ruhlu şair - Şah İsmayıl Xətai // Azərbaycan : qəzet. - 2022. - 20 iyul. - № 150. - S. 10.

**Fikrətoğlu O.** Üçüncü Şah İsmayıl : [Şah İsmayıl dastanı haqqında] // Ədəbiyyat qəzeti. - 2016. - 29 oktyabr. - № 40. - S. 19.

**Gülayə.** Əl ətək tutmayınca, sən dərviş olmazsan... : Azərbaycan hökmdarı, Səfəvilər dövlətinin banisi və ilk şahı, klassik Azərbaycan şairi Şah İsmayıl Xətainin yaradıcılığı haqqında // Kaspi. - 2014. - 22 noyabr. - № 195. - S. 21.

**Hacıyev S**. Dövlətçilik tariximizin şanlı səhifəsi : Akademik Ramiz Mehdiyevin "Şah İsmayıl Səfəvi ali məramlı şəxsiyyət kimi" adlı monoqrafiyası haqqında // Azərbaycan. - 2013. - 17 yanvar. - № 10. - S. 5.

**Xəlilova A**. Şuşa - qalibiyyətin ünvanı! // Ədəbiyyat qəzeti. - 2021. - 6 noyabr. - № 44. - S. 26-27

**Xəlilzadə F**. Səfəvilərin Taclı xanımı : [Şah İsmayıl Xətainin dəyanətli həyat yoldaşı Taclı xanım haqqında] // Kaspi. - 2018. - 13 sentyabr. - № 150. - S. 13.

**Kamal M**. Şah İsmayıl Xətai : Səfəvilər dövlətinin banisi, klassik Azərbaycan şairi // Respublika. - 2022. - 17 iyul. - № 148. - S. 5.

**Mehdiyev R**. Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi // Azərbaycan. - 2012. - 5 dekabr. - № 271. - S. 3-6. ; Respublika. - 2012. - 5 dekabr. - № 271. - S. 3-6. ; Xalq qəzeti. - 2012. - 5 dekabr. - № 271. - S. 3-6.

**Mehdiyev R**. Tarixi idrakın elmiliyi problemlərinə dair : Şah İsmayıl Xətai və Heydər Əliyevin xidmətləri // Azərbaycan. - 2013. - 26 aprel. - № 88. - S. 3-8.

**Məhərrəmov N**. Səfəvi-Osmanlı müharibələri tarixindən // Mədəniyyət : jurnal. - 2020. - № May/İyun. - S. 92-96.

**Mirələmov H**. Şah İsmayıl Səfəvi - qürur və şərəf tağımız : Ali məramlı tarixi şəxsiyyətlərin missiyası // Azərbaycan. - 2013. - 8 yanvar. - № 2. - S. 3. ; 9 yanvar. - № 3. - S.4.

**Mirzəyeva M**. Dəyişdirilmiş döyüş : "Almaqulağı" vuruşması // Təhsil problemləri. - 2015. - 01-07 yanvar. - № 1/2. - S. 7.

**Nəzərova G**. Şah İsmayıl Xətai və Azərbaycan mədəniyyəti // Mədəniyyət.az. - 2018. - № (322). - S. 86-88.

**Noruzoğlu R**. Şah İsmayıl... : Şərur düzündən başlanan qələbə // Respublika. - 2012. - 21 dekabr. - № 285. - S. 8.

**Nuriyev A**. Türk dünyasının böyük şəxsiyyəti : Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai haqqında // Kaspi. - 2011. - 12-14 mart. - № 46. - S. 6.

**Qaraca B**. Tarix təkrar səhvləri bağışlamır :Türk hökmdarları Sultan Səlim və Şah
İsmayıl Xətai // Azərbaycan. - 2013. - 11 aprel. - № 75. - S. 11.

**Qaraoğlu Ş**. Quran iqtibasları və Xətai yaradıcılığı // Ədəbiyyat qəzeti. - 2015. - 6 iyun. - № 36/37. - S. 29.

**Qaraxanlı E** (Zal). Qızılbaş duyğuları : Akademik Ramiz Mehdiyevin "Şah İsmayıl Səfəvi: Hökmdar və döyüşçünün portreti" kitabı ətrafında düşüncələr // Ədəbiyyat qəzeti. - 2019. - 2 noyabr. - № 38. - S. 4-5.

**Qənbərova M**. Reha Çamuroğlunun "İsmayıl" romanı Azərbaycan dilində // Ədəbiyyat qəzeti. - 2012. - 30 noyabr. - № 44. - S. 8.

**Rəşidzadə L**. Çaldıran hökmü // 525-ci qəzet. - 2021. - 27 noyabr. - № 217. - S. 20-21.

**Sadıqov H**. Mərkəzləşdirilmiş Azərbaycan dövlətinin banisi : Şah İsmayıl Xətai haqqında // Azərbaycan. - 2012. - 18 dekabr. - № 282. - S. 4.

**Şah İsmail Xətai** - 520 : Bir əlində qılınc, bir əlində qələm olan sərkərdəmiz // Azad Azərbaycan. - 2007. - 18 iyul. - S.7.

**Şah İsmayıl Xətai** // Göy qurşağı. - 2007. - sentyabr-oktyabr. - S.6-7.

**Salim F**. Şah Xətai və Azərbaycan sufizmi // Kaspi. - 2013. - 4-6 may. - № 79. - S. 24.

**Səfərli A**. "Qılınc və qələm şairi" : Şah İsmayıl Xətai haqqında // Kaspi. - 2012. - 11-13 avqust. - № 370. - S. 17.

**Şərqidərəcək H.** (Soytürk). Şah İsmayıl Xətai siyasət və ideologiya memarı // Yada düşdü. - 2018. - № 3. - S. 39-41.

**Seyidli P**. Şah İsmayıl əzəli rəqib, mənəvi ustad : kiçik memuar // Ədəbiyyat qəzeti. - 2018. - 24 fevral. - № 7. - S. 30.

**Süleymanov M**. Şah İsmayılın həyatının son anları // Ədəbiyyat qəzeti. - 2021. - 13 fevral. - № 6. - S. 8-10.

**Süleymanov M**. Şah İsmayılın portretinə dair bəzi gümanlar // Qobustan. - 2020. - № 2/3. - S. 6-11.

Top lüləsini qılıncla doğrayan sərkərdə // Savalan. - 2019. - 20-26 avqust. - № 31. - S. 4.

**Turan A**. "Qardaş qardaşı mərdanə vurdum deyən yalan söylər..." : Çaldıran savaşından 500 il ötür // Ədəbiyyat qəzeti. - 2014. - 18 iyul. - № 27. - S. 10-11.

**Vəfalı A**. Savaşı kəsən söz... : Şah İsmayıl Xətai - 525 // Ədəbiyyat qəzeti. - 2012. - 14 iyul. - № 26. - S. 1, 3.

Vətənini bütöv edən Azərbaycanlı // Elli. - 2008. - № 12. - S. 20.

**Zamanov N**. Şah İsmayıl Səfəvinin dili // Kaspi. - 2016. - 17 may. - № 84. - S. 10.

# Səfəvilər dövlətinin banisi

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ülkər Cabarova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**